# Səyyyar qəbullar

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə çox çətinliklərlə qarşılaşır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.


Uludaş kəndi.


Mıxlıqovaq kəndi.



Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.


Zalam kəndi.


Tikanlı kəndi.


Savalan kəndi.

Bu ilin avqust və sentyabr aylarında səyyar qəbullar Mıxlıqovaq, Uludaş, Zalam, Tikanlı, Savalan və Soltannuxa kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı sakinlər tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.


Soltaqquxa kəndi.

**"Qəbələ səsi".**
**Fotolar S. Umuyevindir.**

# Vətəndaş qəbulları



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən 15 və 22 avqust tarixlərində vətəndaş qəbulları keçirilmişdir. Keçirilən qəbullarda vətəndaşların müraciətləri və irəli sürdükləri təkliflər dinlənilmişdir. Qəbulda Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin, eləcə də digər vətəndaşların müraciətləri dinlənilmişdir. İrəli sürülən təkliflərin, qaldırılan məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideynləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə öz minnətdarlıqlarını bildirmişlər.

# Abadlıq işləri davam edir

Qəbələdə aparılan abadlıq işləri çərçivəsində yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məqsədi ilə rayon icra hakimiyyəti tərəfindən şəhərin Həzi Aslanov küçəsinə yeni asfalt örtüyü çəkilir.



# Sentyabr - tarixdə mühüm dövr

Sentyabr ayı həm təbiətin, həm də cəmiyyətin dinamikasında mühüm dəyişikliklərin baş verdiyi bir dövrdür. Bu ayın da özünəməxsus tarixi hadisələri, yaddaşlara əks olunan günləri vardır. Ayrı-ayrı peşə bayramlarının təsis olunduğu günlər, əlamətdar hadisələr arasında 15 sentyabr - Bilik Günü, həmçinin Zəfər tarixinin izlərini, əsasını yaradan 27 Sentyabr - Vətən müharibəsinin başlandığı gün sentyabr ayının yaddaşlarda daha çox qalmasının sübutudur. Axı 15 sentyabr məktəb və ali təhsil ocaqlarında şagird və müəllim kontingentlərinin işgüzar həyatına başlanğıc deməkdir.

27 sentyabr isə 30 ildən sonra qazanılan Zəfər tarixinin yazılmasının, qəhrəmanlıq və şücaətin əks olunması üçün meydan açılması, mənfur ermənilərə tarixi dərsin verilməsinin başlanğıc günü, doğru və düşünülmüş Dövlət siyasətinin düzgünlüyünün əksi olan bir gündür... Azərbaycan ordusunun gücünün dünyada bir daha tanınmasına başlangıc günüdür.



**27 Sentyabrdan başlayan Şanlı Tarix**

2020-ci ilin 27 sentyabrı Azərbaycan xalqının yaddaşına həm kədər, həm də qürur dolu bir gün kimi həkk olundu. Həmin gün başlanan Vətən müharibəsi, əsrlər boyu işğal altında qalan torpaqlarımızın azadlığı uğrunda apardığımız ən şərəfli savaş idi. 44 gün davam edən müharibə nəticəsində xalqımız tarix yazdı, torpaqlarımız azad edildi, milli ləyaqətimiz bərpa olundu.

Azərbaycan Ordusu, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə, misilsiz qəhrəmanlıq göstərərək Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın rayonlarını və Qarabağın tacı olan Şuşa şəhərini işğaldan azad etdi. 10 noyabr 2020-ci ildə imzalanan kapitulyasiya aktı ilə Ermənistan məğlubiyyətini qəbul etdi və Azərbaycan böyük Zəfər qazandı.

Qələbədən sonra dövlətimiz "Böyük Qayıdış" proqramını həyata keçirməyə başladı. Bu gün azad olunmuş torpaqlarda həyat yenidən canlanır: yollar çəkilir, kəndlər bərpa olunur, hava limanları və müasir infrastrukturlar qurulur. Zəngilanın Ağalı kəndi ilk "ağıllı kənd" kimi dirçəldi və bu, Böyük Qayıdışın rəmzinə çevrildi.

Müharibədən sonrakı dövrdə Azərbaycanın ərazi bütövlüyü beynəlxalq miqyasda qəbul olundu. Dünya ictimaiyyəti Qarabağın əzəli Azərbaycan torpağı olduğunu qəbul etdi. 2023-cü ilin sentyabrında keçirilən 23 saatlıq antiterror tədbirləri ilə ölkəmizin tam suverenliyi bərpa olundu və qeyri-qanuni erməni silahlı dəstələri tərksilah edildi.

27 sentyabr tarixi Anım Günü, 8 noyabr isə Zəfər Günü elan edildi. Bu günlər xalqımızın birliyini, şəhidlərimizin əziz xatirəsini və qazilərimizin qəhrəmanlığını əbədiləşdirir. Azərbaycan xalqı tarixi ədaləti bərpa etməklə yalnız öz arzularını gerçəkləşdirmədi, həm də dünyaya iradə və güc nümayiş etdirdi.

27 sentyabr 2020-ci ildən bu günə qədər keçən dövr, xalqımızın qürurla yazdığı şanlı zəfər tarixidir. Bu tarix gələcək nəsillərə örnək olacaq, Azərbaycanın qüdrətini və xalqımızın birliyini daim xatırladacaqdır.

Bu şanlı zəfər Azərbaycanı regionun söz sahibinə, Respublika Prezidenti cənab İlham Əliyevi dünyanın nəhəng dövlətləri içərisində nüfuzlu liderə çevirdi. Artıq dünyanın güc dövlətləri İlham Əliyevlə hesablaşır. Ermənistanla bağlanacaq sülh müqaviləsində qarşıya qoyulmuş müddəalar uğurla yerinə yetirilir. Bütün bu uğurların əsasında isə güclü lider-Prezident İlham Əliyevin qətiyyətli siyasəti və xalqın ona verdiyi sarsılmaz dəstək dayanır.